**Xalq qəzeti**. - 2022.- 31 dekabr. - № 288. - S. 27.

# Ürəyi bir vurur ellərimizin

**Əli Nəcəfxanlı**

**Multikulturalizmin Azərbaycan modeli dünyaya nümunədir. Ölkəmizdə neçə-neçə xalq və etnik qrup canbir qəlbdə yaşayır. Ötən əsrdə ulu öndər Heydər Əliyevin, yeni əsrdə isə Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi multikultural siyasət dövlət-din münasibətlərini yüksək səviyyəyə qaldırıb, müxtəlif xalq və etnik qrupların mədəni dəyərlərinin – adət və ənənələrinin yaşadılmasını və onların cəmiyyət daxilində inteqrasiyasını təmin edib.**

Prezident İlham Əliyevin sərəncamları ilə milli azlıqların sıx yaşadıqları bölgələrdə sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və s. sahələrdə böyük layihələr həyata keçirilir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi “Bərabərlik hüququ” adlanır. Əsas Qanunun 45-ci maddəsində isə "Ana dilindən istifadə hüququ" təsbit olunub. Hazırda ölkəmizdə yaşayan milli azlıqların dillərində 15-dən çox qəzet və jurnal nəşr olunur. Azərbaycan radiosunda kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində dövlət büdcəsindən maliyyələşdirilən müntəzəm radio verilişləri aparılır, milli azlıqların kompakt yaşadığı bölgələrdə 5 yerli teleradio kanalı fəaliyyət göstərir. On üç rayonda etnik uşaqlara ana dillərində ibtidai siniflər üzrə təhsil verilir. Həmin bölgələrin məktəbəqədər tərbiyə müəssisələrində uşaqlar doğma dillərində danışırlar. Bu mədəniyyət məişət həyatında, sənətkarlıqda, mətbəxdə, müxtəlif mərasimlərdə də özünün geniş əksini tapmaqdadır.

## Bir talış ailəsində

Əsasən ölkəmizin cənub-şərqində kompakt məskən salmış talışlar əsrlərdir ki, canımızın bir parçası kimi bizimlə çiyin-çiyinə, ürək-ürəyə yaşayıb yaradırlar. 2009-cu ildə keçirilmiş ümummilli siyahıyaalmanın nəticələrinə görə Azərbaycanda talışların sayı 112 min nəfərdir. Onlar Abşeron, Sumqayıt, Cəlilabad, Neftçala, Biləsuvar və digər qarışıq məskunlaşma bölgələrində də yaşayırlar. Həm talış, həm də Azərbaycan dilində sərbəst danışır, etnik mədəniyyətlərini hərtərəfli qoruyub inkişaf etdirirlər.

Lənkəranın qədim talış kəndlərindən biri Boladidir. İlk dəfə bu kəndə 1996-cı ilin yayında, mərhum şair Şəkər Aslanın ildönümü ilə əlaqədar gəlib televiziya üçün süjet hazırlamışam. Sumqayıtda yaşayan mühəndis-şair dostum Süleyman Hüseynov da əslən buradandır. Ümumiyyətlə, talış dostlarımın sayı yüzlərlədir. Mən onları ayrı-seçkilik sevməyən mərd, qonaqpərvər, zəhmətkeş, etibarlı olduqlarına görə sevirəm.

Bu dəfə Boladiyə başqa bir şair dostum – Veravul kəndindən olan, Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin sədr müavini Ağamir Cavadla yollandıq. Kənddə bizi gözləyən ərazi icra nümayəndəsi Nizami də ki, sən demə, Süleyman müəllimin kiçik qardaşı imiş. Elə onun müşayiəti ilə görüşmək istədiyim bir ailənin qapısına üz tutduq.

Ev sahibi, 86 yaşlı, qıvraq tövrlü Kamil Ağayev və ömür-gün dostu, 83 yaşlı Rəhimə xanım bizi mehriban qarşıladılar. İşə baxın ki, onlar da rəhmətlik Şəkər Aslanın qonşuları çıxdılar. Üstəlik, Ağamir Cavad bildirdi ki, onun nəsli də əslən elə Boladidəndir. Tanışlıq verdi, tanıdılar. Ay aman, təsadüflərə baxın. Ağa dedi:

– Şəkər Aslanın ruhu şad olsun deyə, ondan bir-iki bənd şeir söyləyim. Və Şəkərin şəkər kimi misralarını dilə gətirdi. Mən də yazacağım mövzuya uyğun gələn bir bəndi tez bloknotuma köçürdüm.

Bu eldən karvanlar gəlib ötüşüb,

Açıqdır, nurludur ürəklərimiz.

Qonaq getməkdən çox, burda dəb düşüb, Qonaq çağırmağı xoşlayırıq biz. Bizdən ötrü əldən-ayaqdan gedən ev sahiblərinə baxa-baxa düşündüm ki, bu şeir parçası Boladinin əsl xasiyyətnaməsidir.

– Toyunuz yada gəlirmi? – deyə soruşdum. Kamil kişi "hə" deməmiş, Rəhimə xanım xatirə cığırında qabağa düşüb getdi.

– Yetim oğlan idi, bacısının himayəsində böyümüşdü. Biz də kasıb idik. Gəldilər, daha bir söz deməyib razılaşdım. Cehiz də istəmədilər. Toyumuz gur keçdi. Üstündən 70 ilə qədər vaxt ötür. Təsəvvür edin də, ilkimiz İradənin 66 yaşı var. – Toyda Şəkər də şeir oxudu, – deyə Kamil kişi əlavə etdi.

– Onunla dost idik. Buruq-buruq vaxtları vardı rəhmətliyin. Sonra "Lənkəran" qəzetinin redaktoru oldu, bütün ölkədə tanındı.

– Bəs, siz?

– Biz kənddə çalışdıq. Mən Salyan Kənd Təsərrüfatı Texnikumunu bitirdim, sadə zəhmətimlə ailəmi dolandırdım. Doqquz uşaq böyütdük. Biri də olsaydı, hökumət arvada "Qəhrəman Ana" ordeni verərdi.

– Kamil kişi bunu deyib qımışdı və zarafata salıb əlavə elədi:

– Amma sovet vaxtı nədənsə "Atalıq" medalı yox idi. Bu sözə hamı gülüşdü. Kəndin "hökuməti" isə dedi:

– Düz deyir. Bizim cənub bölgəsində ailələrin çoxuşaqlı olması şərəf işidir. Səhv etmirəmsə, 2005-ci ildə Lənkəran rayonunda 1650, Cəlilabadda 1379, Masallıda 1202, Astarada 853, Yardımlıda 668 "Qəhrəman Ana" olub. Ağbirçəkdən övladlarının adlarını soruşdum ki, qeyd eləyim. Saymağa başladı:

– İradə, Həqiqət, Füzuli, Eldar, Şanı, İlahə, Zəminə və Əminə. Biri də vardı – Rəvanə. O az yaşadı, 9 yaşında vəfat elədi. Qalanları elə bizim kimi sağ-salamatdır. İyirmi nəvəmiz, otuz nəticəmiz də var. Bir sağlam kök üstə, görün, necə qol-budaq atmışıq. Ağayevlər ailəsinin fərəhli çağları da olub, çətin günləri də. Amma ruhdan düşməyiblər. Kamil kişi bu barədə danışdıqca nikbinliyi üzündən hiss olunurdu.

– Daim qonum-qonşudan mehribanlıq, azərbaycanlılardan xoş sifət, rayon və ölkə rəhbərliyindən diqqət və qayğı görmüşük. Heç vaxt ümidimiz üzülməyib və axırı yaxşılığa calanıb. Xeyir-bərəkət bizimlə olub. Mən də, arvad da Həcc ziyarətinə getmişik. Hər namaza duranda dövlətimizə dualar edirik. Bu əmin-amanlığımızı Allah qorusun, deyirik.

Rəhimə xanım əlavə etdi:

– Neçə-neçə toy eləmişik... Nə deyəcəkdim? Hə, yadıma düşdü. Toylarımızın bəzisində qohumumuz Yalçın Rzazadə də iştirak edib...

Biz də Liman şəhərində onun toyunda olmuşuq. Yalçın rəhmətlik hər dəfə anası, bacısı və uşaqları ilə bizə gələndə məndən boranı-plov bişirməyi xahiş edirdi. Bu talış xörəyini yaman çox istəyirdi. Bəh-bəhlə yeyirdi.

– Ey gidi dünya...

– Kamil kişi belə deyib bir anlıq fikrə getdi. Sonra üzünü mənə tutdu:

– Bacıoğlu, qəfil gəlmisiniz. Yoxsa, sizin üçün bir quzu alıb kəsərdim. Yenə də gec deyil. Gözləyin, gedim həll edim. İmkanımıza nə gəlib ki? Arvad da, mən də pensiya alırıq. Nərimanabadda böyük təsərrüfatı olan Eldar da, Rusiyada yaşayan Füzuli də əl tuturlar.

– Çox sağ olun, zəhmət çəkməyin, – dedim.

– Getməliyik. Sizin səmimiyyətinizə inanırıq. Bir də ki, necə qonaqpərvər, ürəyiaçıq olduğunuzu Şəkər Aslan şeir dili ilə gözəlcə ifadə edib də. İnşallah, gələn il Rəhimə xanımla evliliyinizin 70 ili tamam olar, "Platin toy"unuza gələrik.

Çay içə-içə söhbətimizi bir qədər də davam etdirdik. Xalqlarımızın milli-etnik keyfiyyətləri vurğulandı. Ağamir Cavad da bu mövzuda özünün poetik duyğularından bəzi misallar gətirdi.

Kamil kişi isə şairə qulaq asıb başı ilə təsdiqlədi. Sonra da bir əhvalat danışdı.

– Nankor ermənilərdən başqa, Azərbaycanda yaşayan bütün xalqlar istiqanlıdırlar. Bir dəfə iki erməni Qafandan kəndimizə satlıq kartof gətirmişdi. Axşam onları evə dəvət elədim. Dedim, gecəni bizdə qalın, səhər gedərsiniz. Yatmaq vaxtı gələndə gördüm ki, pencəklərini büküb yastıqlarının altına qoymaq istəyirlər. İrad tutdum, "Ara, bizdə oğurluq olmaz, pulunuza görə qətiyyən qorxmayın", -dedim və otağın qapısını örtüb çıxdım...

Bir neçə il sonra iş elə gətirdi ki, mən Qafana limon apardım. Bazarın yanında milis sahə müvəkkili mənə "Şələ-küləni də yığışdır, tez burdan rədd ol", – dedi.

– Bax, bizlərdən fərqli olaraq, ermənilər belə yaramazdırlar...

Əziz oxucu! Sizi Lənkəranda yaşayan adi bir talış ailəsi ilə tanış etdik. İnanın, orada da, Lerikdə də, Masallıda da, Astarada da hansı qapıya getsəniz, kimliyinizi soruşmadan darvazalarını qarşınızda geniş açacaq, "Xoş gəlmisiniz!" deyəcəklər. Bunu sizə 20 ilədək həmin bölgədə işləmiş, yerli əhalinin hər xasiyyətinə yaxından bələd olan biri kimi mən deyirəm: